**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI HƏRBİ TƏCAVÜZÜNDƏN ZƏRƏR ÇƏKMİŞ VƏTƏNDAŞLARLA BAĞLI DÖVLƏT SİYASƏTİNİN İNSTİTUSİONAL ƏSASLARI

| | |
|---|---|
| İxtisas: | 5904.01 - "Siyasi institutlar və sistemlər" |
| Elm sahəsi: | Siyasi elmlər |
| İddiaçı: | **Emin Əliyar oğlu Həsənli** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Siyasi elmlər doktoru, professor<br>**Elman Xudam oğlu Nəsirov** |
| Rəsmi opponentlər: | Siyasi elmlər doktoru<br>**Elnur Bəybala oğlu Hacalıyev** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Sənan Səməndər oğlu Həsənov** |
| | Siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Rəşad Əsəd oğlu Sadıqov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>_______________ | Akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi:<br>_______________ | Siyasi elmlər doktoru, dosent<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi Seminarın sədri:<br>_______________ | Siyasi elmlər doktoru, dosent<br>**Sevil İmamverdi qızı Məmmədova** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** XX əsrin sonu dünya siyasətində soyuq müharibənin bitməsi kimi başlanan yeni dövr, eyni zamanda separatizmin və millətçiliyin dərinləşməsi ilə də yadda qalmışdır. Bu dövrdə Ermənistanın Azərbaycana qarşı başlanan hərbi təcavüzü müxtəlif xarici qüvvələrin təsirləri ilə ölkəmizin müstəqilliyini zəiflətməyə yönəlmişdi. Bu təcavüz nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmiş, minlərlə soydaşımız əsir və itkin düşmüşdür. Müstəqilliyin ilk illərinə təsadüf edən həmin dövrdə ölkəyə səriştəsiz rəhbərlik şəraitində qeyd olunan problemlərin həllinə yönələn heç bir təsirli iş görülməmişdir. Yalnız Ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra dövlətimiz tərəfindən qaçqın və məcburi köçkünlərə xüsusi diqqət və qayğı göstərilərək, bu istiqamətdə genişmiqyaslı tədbirlərin keçirilməsinə başlanmışdır. Bu məsələlərə böyük əhəmiyyət verən Ümummilli Liderimiz göstərirdi: ”İşğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşlarımızın problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir”.[1] Ermənistanın işğalından zərər çəkmiş vətəndaşlarımız ilə dövlətimizin apardığı siyasətin institusional əsaslarının yaradılması, bu siyasətin institusional komponentinin formalaşdırılması da öz həllini tapırdı.

Ulu Öndər Heydər Əliyevin milli inkişaf strategiyasının uğurla reallaşmasına başlanılması, “Əsrin müqaviləsi”nin imzalanması cəbhə bölgəsində Ermənistanla atəşkəsə nail olunmasına dair sazişin imzalanması qaçqın və məcburi köçkünlərin problemlərinin həlli imkanlarını getdikcə artırmış oldu. Onların müvafiq statusu, sosial müdafiəsi, yaşayış və iş yerləri ilə təmin edilməsi qarşıda dururdu. Ümummilli Liderimiz Heydər Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə, yaşadıqları humanitar fəlakətin dünya ictimaiyyətinə çatdırılmasına, bu istiqamətdə respublika və regional müşavirələrin keçirilməsinə xüsusi əhəmiyyət verirdi. Bu

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 cilddə. Yeddinci kitab. Bakı, Azərnəşr. 1998. 520 səh. s.281.

problemlərlə daha ciddi məşğul olmaq üçün 1995-ci ildə Nazirlər kabinetində xüsusi vəzifə-Baş nazirin müavini vəzifəsi təsis edilmiş, eləcə də hökumət komissiyası yaradılmışdır.

Əsasını Ulu öndərimiz Heydər Əliyevin qoyduğu bu istiqamətdəki dövlət siyasəti onun layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev böyük uğurla davam etdirərək, bu siyasətin institusional əsaslarının inkişaf etdirilməsi işlərinə xüsusi önəm verdi, qaçqınlar və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün geniş imkanlar yaratdı.

Prezident İlham Əliyevin hələ 1 iyul 2004-cü il tarixli (N298) Sərəncamı ilə Qaçqın və məcburi köçkünlərin şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət proqramı təsdiq edilmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən məcburi köçkünlərlə, işğaldan zərər çəkmiş vətəndaşlarımızın problemlərinin həlli ilə bağlı indiyədək yüzlərlə Fərman və Sərəncam imzalanmışdır. Bu kimi məsələlərin elmi araşdırılması dissertasiyanın aktuallığını xüsusilə artırır.

Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Böyük Qələbə Ermənistanın 30 illik işğalına son qoymuş, keçmiş qaçqınlar və məcburi köçkünlərin öz doğma torpaqlarına Böyük Qayıdışını mümkün etmişdir.

Tədqiqat mövzusunun aktuallığını konkret olaraq aşağıdakı müddəalarla ifadə etmək olar:

- Azərbaycanın tarixi ərazilərinin Ermənistan tərəfindən işğalı ərəfəsində ölkədə ictimai-siyasi vəziyyətin, eləcə də çoxlu sayda silahlı qruplaşmaların yaranması prosesinin qoyulan problem kontekstində öyrənilməsi mövzunun ətraflı araşdırılması baxımından önəmlidir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və onun ağır nəticələri ilə üzləşmiş yüz minlərlə soydaşlarımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşlər. Müstəqilliyin ilk illərində bu çətin tarixi proses müharibədən zərər çəkmiş vətəndaşlarımıza, Ermənistanın Qarabağı və ətraf rayonlarımızı işğal etməsi nəticəsində həlak olan hərbçilərin ailələrinə, qazilərimizə

hakimiyyətdə olanlardan diqqət və qayğının göstərilməsini, bu istiqamətdə yeni qanunların qəbul edilməsini və müvafiq sərəncamların verilməsini tələb edirdi. Lakin həmin insanların problemlərinin həlli ilə dövlət orqanları məşğul olmamışlar ki, bu da çətinliklərin daha da artmasına gətirib çıxarmışdır. Odur ki, bu məsələlərin araşdırılması aktual olmaqla mövzunun ətraflı təhlili baxımından zəruridir.

- İşğaldan zərər çəkmiş vətəndaşlarımızla bağlı dövlət siyasətinin aparılması, bununla əlaqədar institusional əsasların yaradılması Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıtdığı vaxtdan həmişə Azərbaycan dövlətinin diqqət mərkəzində olmuşdur. Qaçqınlara və məcburi köçkünlərə dövlət qayğısı, onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar baxımından Heydər Əliyevin 1998-ci ildə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi bu problemlərlə daha ciddi məşğul olmaq üçün geniş yer ayırmışdır. Ümummilli Liderimiz Heydər Əliyev müharibədən zərər çəkmiş vətəndaşlarımızın problemlərinin daxildə həllinə çalışmaqla bərabər, respublikamıza həmin dövrlər erməni lobbi təşkilatlarının təsirləri ilə sirayət edən siyasi təzyiqlərin də uğurla qarşısını alırdı.

- Ermənistan dövlətinin Azərbaycana qarşı hərbi təcavüzü siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı kimi bəşəri qətliamın, onun ölkəmiz və zərər çəkən vətəndaşlarımız üçün ağır nəticələrinin açılıb göstərilməsi və bəşəri cinayət olan bu soyqırımın dünyada tanıdılması siyasətinin sistemli öyrənilməsi zəruridir.

- Ermənistanın hərbi təcavüzündən zərər çəkmiş Azərbaycan vətəndaşlarının problemlərinin institusional həlli ilə bağlı həyata keçirilən dövlət siyasəti çərçivəsində hökumət strukturlarının vəzifələri və səlahiyyətlərinin təhlili də aktual olmaqla maraq doğurur.

- Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu sahədəki dövlət siyasəti onun layiqli siyasi varisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük nailiyyətlərin əldə olunması ilə uğurla davam etdirilir. Prezidentimizin güclü Azərbaycan dövlətinin yaradılması və inkişaf

etdirilməsi strategiyasının işğalçı Ermənistan üzərində Azərbaycanın Böyük Qələbəsinə aparan yol xəritəsi kimi baxılan problem kontekstində öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

- Postmüharibə dövründə Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla reallaşan Böyük Qayıdışın həyata keçirilməsi və təcavüzdən əziyyət çəkmiş vətəndaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması, vurduğu zərərlərin aradan qaldırılması istiqamətində ölkəmizdə aparılan böyük quruculuq siyasətinin, eləcə də azad olunmuş ərazilərdə yeni infrastruktur və sosial həyat təminatının təhlili mühüm əhəmiyyət daşıyır.

- Müasir dünyada münaqişələrin və böhranların getdikcə daha da artdığı bir vaxtda milyonlarla insanlar qaçqın və məcburi köçkün olaraq yaşayır, bu gün onların problemlərinin həlli vəziyyəti daha da pisləşir. Azərbaycanda isə Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyası və ardıcıl reallaşdırdığı innovativ islahatlar kursu qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə daha geniş imkanlar yaradır. Ölkəmizin bu təcrübəsi oxşar problemləri olan dövlətlər üçün nümunəvi model olmaqla xüsusi maraq doğurur.

Dissertasiyanın digər bir aktual tərəfi onun ərazilərimizin işğaldan azad edildiyi tarixi dövrdə işlənilib başa çatmasıdır. Bu dövr həm də ölkəmizə qarşı əsassız siyasi təzyiqlərin artması ilə xarakterizə olunur. Bizim haqq yolunda olduğumuzu, öz əzəli torpaqlarımızı beynəlxalq hüquq çərçivəsində hərbi yolla azad etdiyimizi vurğulayan Azərbaycan Prezidenti cənab İlham Əliyev göstərir: "Qarabağı işğaldan azad etməyimiz, xüsusilə keçən ilin sentyabrında həyata keçirdiyimiz antiterror əməliyyatı bəzi qüvvələri narahat edib. O vaxtdan bu günədək Azərbaycana olan təzyiqlər durmadan davam edir, bunun yeganə səbəbi Qarabağı işğaldan azad etməyimizdir".[2]

Təhlil edilən mövzunun əsas mərkəzində düşmən təcavüzündən əziyyətlər çəkmiş Azərbaycan xalqının birgə əzmkarlığının zaman-zaman təhlili məsələləri dayanır. Problemin işlənmə dərəcəsinin təhlili

---

[2] Əliyev İ. H. İnkişaf məqsədimizdir: yüz otuz beşinci kitab: mart-2024-a-aprel-2024 Çıxışlar-nitqlər, bəyanatlar-müsahibələr-məktublar-məruzələr-müraciətlər. B, Azərnəşr, 2024, 392 səh.

mövzu ilə bağlı elmi ədəbiyyatın qruplaşdırılması əsasında aparılmışdır. Burada, ilk növbədə, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları, nitqləri, müsahibələri və bəyanatlarından ibarət olan "Müstəqilliyimiz əbədidir" və "İnkişaf - məqsədimizdir" kimi çoxcildliklər vacib yer tutur.[3]

Elmi ədəbiyyatın digər qrupunu Azərbaycan tədqiqatçıları E.Əhmədovun, İ.Məmmədzadənin, S.Həsənovun, E.Nəsirovun, N.Əliyevin, E.Süleymanovun, V.Süleymanovun və M.Sərdarovun, Türkiyə müəllifləri N.Gülün, G. Ekinin, A.Aslanlının, H.Cabbarlının, Rusiya tədqiqatçıları A.Mityayevin, Y.Pompeyevin və b. Ermənistan-Azərbaycan münaqişəsinə, eləcə də postmüharibə reallıqlarına həsr olunmuş əsərləri təşkil edir.[4]

Geniş elmi ədəbiyyat Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində qaçqın və məcburi köçkünlərin problemlərinə, münaqişədən zərərçəkənlər kimi onlara dövlət qayğısının göstərilməsi, bu istiqamətdə Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət və bu siyasətin institusional əsaslarının müxtəlif aspektlərdən öyrənilməsinə həsr olunmuşdur. Araşdırılan mövzu baxımından

---

[3] Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir, 46 cilddə, Bakı, Azərnəşr, 1997-2016; Əliyev İ. H. İnkişaf-məqsədimizdir. Bakı, Azərnəşr,139 cilddə. 2009-2025.

[4] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011); Bakı, Ensiklopedik nəşr, 2012, 992 s.; Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. I kitab. Bakı: Elmin İnkişafı Fondu, 2015. - 324 s; Əhmədov E. İ. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. II kitab. Bakı: Elmin İnkişafı Fondu, 2015, 408 s.; Məmmədzadə İ., Həsənov S. Azərbaycanın strateji hədəfləri və Cənubi Qafqazda yeni reallıqlar. Bakı, Bilgi, 2021, 250 s.; Nəsirov E. Azərbaycanın neft və qaz sənayesi, nailliyyətlər və prinsiplər. Bakı, FOCUS, 2010, №2, s.75-85; Ахундов Н. Международное право Нагорно-Карабахского конфликта. Москва: Berl, 2023, 174с; Алиев Н. Воостановление территориальной целостности и суверенитета Азербайджана: правовые аспекты. – Баку, "Elm və təhsil", 2023. 288 с; Gül N., Ekici G. Azerbaycan ve Türkiye ile bitmeyen kan davası ekseninde Ermenistanın dış politikası//Avrasya dosyası üç aylık uluslararası ilişkiler ve stratejik araştırmalar dergisi, Ankara, 2001, sayı: 2, s.25-28; Cabbarlı H, "Geçmişten Günümüze Ermenistan'da Azerbaycan Türkleri", Ermeni Araştırmaları, Sayı 4, dekabr 2001-Yanvar-Fevral 2002, ss. 122-146; Митяев И.В. Россия в карабахском конфликте // ww.zakafkazya.org/" www.zakafkazya.org , (14 avqust 2009-cu il) və b.

maraq doğuran elmi işlərin müəllifləri kimi Y.Əliyevanı, T.Hüseynovu, R.Məmmədovu, S.Süleymanlını və X.Abbasovu, E.Cəfərovu, M.Sərdarovu, E.Süleymanovu və V.Süleymanovu, M.Məmmədovanı, Z.Rəhimovanı və b. göstərmək olar.[5]

E.Süleymanov və V.Süleymanovun həmmüəllifliyi ilə dərc olunmuş "Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri" adlı əsərdə Ermənistanın təcavüzü nəticəsində Azərbaycana vurulmuş maddi və mənəvi zərərin müəyyənləşdirilməsi məsələləri, münaqişənin tarixi və geosiyasi kökləri araşdırılıb, beynəlxalq təşkilatların təcavüzkar Ermənistan tərəfindən Azərbaycanın tarixi ərazilərinin işğalı faktının tanınması mühüm sənədlər əsasında çatdırılır.

Müəllifləri R.F.Məmmədov, S.A.Süleymanlı və X.R. Abbasov olan "Azərbaycanlı qaçqın və məcburi köçkünlərin problemləri beynəlxalq təşkilatlar müstəvisində" adlı kitabda isə beynəlxalq hüququn müvafiq müddəaları və Azərbaycanın qanunvericiliyi kontekstində qaçqın və məcburi köçkünlərin hüquqları institutunun formalaşması və inkişafı, bu sahədə normativ-hüquqi bazanın inkişaf etdirilməsi və təkmilləşdirilməsi, onların hüquqi statusu məsələləri araşdırılmış, problemlərinin həllində Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin rolu göstərilmişdir. [6]

Beləliklə, tədqiqat mövzusuna həsr olunmuş elmi ədəbiyyatın təhlili bu problematikanın müxtəlif aspektlərinin araşdırıldığını göstərir. Lakin bununla belə, təqdim olunan dissertasiyanın mövzusu

---

[5] Məmmədov R.F., Süleymanlı S.A., Abbasov. X.R. Azərbaycanlı qaçqın və məcburi köçkünlərin problemləri beynəlxalq təşkilatlar müstəvisində. Bakı, Səda Nəşriyyatı, 2016, 232 s.; Cəfərov E. Qaçqın və məcburi köçkünlərə qayğı dövlət siyasətinin prioritetlərindəndir // Azərbaycan. -2016.- 13 oktyabr.- S.4; Həsənov Ə. Məcburi köçkünlərin sosial problemlərinin həlli daim diqqət mərkəzindədir // Yeni Azərbaycan.-2014.- 4 mart.- S.5. ; Süleymanov E., Süleymanov V. Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri. Bakı, 2012. 181 s.; Рагимова З., Мамедова М. Рагимова З.,Мамедова М.Миграционная ситуация в Азербайджане // Международная миграция населения на постсоветском пространстве: двадцать лет удач, ошибок и надежд, Выпуск 25, М,: Верди, 2011, стр. 90-102 və b.

[6] Məmmədov R.F., Süleymanlı S.A., Abbasov. X.R., Azərbaycanlı qaçqın və məcburi köçkünlərin problemləri beynəlxalq təşkilatlar müstəvisində. Bakı, Səda Nəşriyyatı, 2016, 232 s.

Azərbaycan siyasi elmi çərçivəsində, eləcə də nəzərdən keçirilən xarici ölkələrin tədqiqatçıları tərəfindən məhz bu qoyuluşda öyrənilməmişdir ki, bu da dissertasiya işinin elmi dəyərini müəyyən etməyə imkan verir.

Tədqiqatın obyektini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində zərər çəkmiş vətəndaşlarla bağlı dövlət siyasəti, predmetini isə zərər çəkmiş vətəndaşlarla işin təşkili ilə bağlı dövlət siyasətinin institusional əsasları, o cümlədən bu müstəvidə müvafiq dövlət orqanlarının fəaliyyət istiqamətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi problemə sistemli baxış əsasında Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində zərər çəkmiş Azərbaycan vətəndaşlarının üzləşdikləri ağır vəziyyətlərinin və həyat şəraitinin təhlil edilməsindən, bu istiqamətdə respublikamızda aparılan dövlət siyasətinin prioritetlərinin və onun institusional əsaslarının tədqiq edilməsindən ibarətdir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsinə səy göstərilmişdir:

- Azərbaycanın ərazilərinin işğalı ərəfəsində ölkədə ictimai-siyasi vəziyyətin xüsusiyyətlərinin təhlil edilməsi;
- Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ondan zərər çəkmiş vətəndaşların üzləşdiyi problemlərin təhlilinin aparılması;
- Ermənistan dövlətinin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin nəticələrinin açılıb göstərilməsi;
- Ulu Öndər Heydər Əliyevin müstəqil dövlət quruculuğu və Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi sahəsində fəaliyyətinin təhlili;
- İşğalın aradan qaldırılması istiqamətində Azərbaycanın bu sahədəki beynəlxalq institutlarla diplomatik səylərinin araşdırılması;
- Şəhid ailələrinə, müharibə əlilləri və veteranlarına dövlət qayğısı siyasətinin xüsusiyyətlərinin araşdırılması;
- Azərbaycan Respublikası ərazilərinin işğaldan azad edilməsində Prezident, Ali Baş Komandan İlham Əliyevin tarixi missiyasının səciyyələndirilməsi;
- Hərbi təcavüzə məruz qalmış tarixi Azərbaycan ərazilərində dövlət suverenliyinin tam bərpası və müharibədən zərər çəkmiş

vətəndaşlarla işin təşkilində yeni mərhələnin təhlil edilməsi və s.

**Tədqiqatın metodları.** Tədqiqatın aparılmasında problemə sistemli yanaşma əsasında induksiya və deduksiya, analiz və sintez kimi ümummәntiqi metodlardan, institusional, sistemli, müqayisəli-tarixi, müqayisəli-politoloji təhlil, kontent-analiz və bir sıra digər elmi araşdırma metodlarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan müddəalar:**

- Ermənilərin "Böyük Ermənistan" xülyası ətrafında təcavüzü Azərbaycan vətəndaşlarına qarşı amansız cinayətlərin başlanğıcı olmuşdur.

- Azərbaycanda müstəqilliyin ilk illərində səriştəsiz rəhbərlik şəraitində baş verən böhranlı sosial-siyasi proseslər və Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzündən zərər çəkmiş vətəndaşlarımızın problemlərinin institusional həlli vasitələrinin olmaması daxili gərginliyi artıraraq, düşmənin daha çox Azərbaycan ərazilərini işğal etməsinə səbəb olmuşdur.

- Azərbaycan dövləti yalnız Ulu Öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra qaçqın və məcburi köçkünlər üçün dünyada analoqu olmayan həyat şəraitini təmin etməyə başladı.

- Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev Ermənistanın hərbi təcavüzü əleyhinə dövlətimizin strateji kursunu müəyyən etməklə, təcavüzdən zərər çəkmiş vətəndaşlarımızla bağlı dövlət siyasətinin institusional əsaslarının yaradılması məsələlərini uğurla həll etmiş oldu.

- Müharibədən zərər çəkmiş vətəndaşlarımızla bağlı ölkə başçısının rəhbərliyi altında dövlət və vətəndaş cəmiyyəti təsisatları bu illər ərzində birgə çalışmış, milli həmrəyliyə nail olmuşlar.

- Azərbaycan ATƏT-in Minsk Qrupunun fəaliyyətinin yararsız olduğunu artıq atəşkəsin ilk illərindən diqqətə çatdırırdı. Sonda 44 günlük Vətən müharibəsində Azərbaycanın Böyük Qələbəsindən sonra bu təşkilatın təşviṣə düşməsinin səbəbləri onun ədalətsiz fəaliyyəti ilə bağlıdır.

- Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin diplomatik məharəti və uğurlu hərbi siyasəti Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam

bərpasını təmin edərək, xalqımızın indiyədək təcavüzdən çəkdiyi sarsıdıcı zərərlərin aradan qaldırılmasının tarixi epopeyasının əsasını qoydu.

- Qarabağda "Ağıllı" yaşayış məskənlərinin salınması və onlara Böyük Qayıdış müasir günümüzdə müharibədən zərər çəkmiş vətəndaşlarımızın işğaldan çəkdiyi əziyyətlərinin aradan qaldırılması istiqamətində Azərbaycan dövlətinin reallaşdırdığı uğurlu siyasətin tərkib hissəsidir. Yeni institusionallaşma mərhələsi bütünlüklə suverenliyimizin tam bərpasının nəticəsidir. Bu baxımdan həmin istiqamətdə görülən işlər əbədi suverenlyimizin möhkəmliyi istiqamətində təsisatlanmanı, səfərbərliyi, ideoloji birliyi təmin etməyə yönəlməlidir.

**Tədqiqatın elmi yeniliyi** problemin bir çox aspektlərinin ilk dəfə öyrənilməsi ilə müəyyən olunur. Bu baxımdan dissertasiya işində:

- Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzündən zərər çəkmiş vətəndaşlarımızla bağlı dövlət siyasətinin institusional aspektləri həm tarixi, həm də müasir problemlər kontekstində öyrənilir;
- Ulu Öndər Heydər Əliyevin müstəqil dövlət quruculuğu və Azərbaycanın ərazi bütövlüyünün bərpası, müharibədən zərər çəkmiş vətəndaşlara dövlət qayğısı sahəsində tarixi rolu açılıb göstərilir;
- Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin müharibədən zərər çəkmiş vətəndaşlarımızla işinin istiqamətləri və nəticələri faktoloji materiallar əsasında araşdırılır;
- Ermənistanın 2020-ci il İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın dinc əhalisinə qarşı törətdiyi hərbi cinayətlər açılıb göstərilir və onun bu cinayətlərə görə beynəlxalq hüquq çərçivəsində cəzalandırılmasına dair tezislər irəli sürülür;
- Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük uğurla reallaşdırdığı hərbi-diplomatik strategiyasının nəticəsi olaraq ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası şəraitində müharibədən zərər çəkmiş vətəndaşların Böyük Qayıdışı prosesi onlarla bağlı işin təşkilində yeni mərhələ kimi təhlil edilir;
- Ermənistanın işğalından azad olunmuş ərazilərin "Agıllı şəhər",

“Ağıllı kənd” konsepsiyaları əsasında bərpa olunması işıqlandırılır, bu layihələrin artıq reallaşması uğurları, Qarabağın gələcək taleyində yeni kreativ layihələrin rolu açılıb göstərilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəzəri əhəmiyyəti ondan ibarətdir ki, burada irəli sürülən müddəalar və nəticələr bu istiqamətdə elmi-tədqiqat işlərinin aparılmasında zəmin ola bilər. Dissertasiyanın materiallarından ali məktəblərdə müvafiq kursların tədrisində, mühazirə mətnləri və dərsliklərin hazırlanmasında, elmi-praktik konfransların keçirilməsində istifadə oluna bilər.

Dissertasiyanın materialları və nəticələri bu sahə ilə məşğul olan dövlət orqanları üçün faydalı ola bilər. Eyni zamanda separatizmə cavab olaraq təsisatlanma məsələləri, müharibədən zərər çəkmiş insanlarla aparılan kompleks işlərin təhlili baxımından da geniş praktik əhəmiyyət kəsb edə bilər.

**İşin aprobasiyası və tətbiqi.** İşin əsas məzmunu və müddəaları müəllifin dissertasiya mövzusu üzrə dərc etdirdiyi elmi məqalələrində, həmçinin, konfranslardakı məruzə və çıxışlarında, onların tezislərində yer almışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası.

**Dissertasiyanın struktur bölmələri və ümumi həcmi (işarələrlə).** Dissertasiya işi giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş – 16.640, I Fəsil – 61.174, II Fəsil – 58.891, III Fəsil 98.201, Nəticə – 13.811 işarə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla, ümumən 248.717 işarə həcmindədir.

# İŞİN ƏSAS MƏZMUNU

Tədqiqatın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi haqqında məlumat verilir.

Dissertasiyanın **“Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bundan zərər çəkmiş vətəndaşların üzləşdiyi problemlər“** adlı birinci fəsli üç yarımfəsildən ibarətdir.

Bu fəslin **“Azərbaycanın ərazilərinin işğalı ərəfəsində ölkədə ictimai-siyasi vəziyyətin xüsusiyyətləri”** adlı birinci yarımfəslində göstərilir ki, bir tərəfdən böyük dövlətlər tərəfindən Azərbaycanda ictimai-siyasi vəziyyəti gərginləşdirmək cəhdləri edilirdi, digər tərəfdən ermənilərin Qarabağa hücumlarına yardımlar göstərilirdi. Bu yardımlar həm Rusiya, həm də digər dövlət tərəfindən gizli və aşkar şəkildə davam etdirilirdi. Eyni zamanda həmin dövrdə institusional idarəetmə aparatının formalaşmaması nəticəsində çoxlu silahlı qruplaşmaların yaranması baş verdi. Nəticədə erməni təcavüzündən zərər çəkənlərin miqyası günü-gündən genişlənməyə başladı. Azərbaycanın tarixi ərazilərinin işğalının ilk illəri vətəndaşlarımız üçün ağır məhrumiyyətlər ilə müşahidə olundu. Respublikamızda həmin dövrün siyasi proseslərinin araşdırılması problemə həm tarixi, həm də sistemli metodlarla yanaşmanı tələb edir. Göstərilir ki, Ermənistan tərəfindən ölkəmizə qarşı hərbi səfərbərlik genişlənsə də həmin dövrdə respublikamızın siyasi hakimiyyət dairələri problemə milli deyil, sovet birliyi düşüncəsindən yanaşır, təcavüzün artmasının ağır nəticələrini sanki görmür, heç bir qabaqlayıcı təsisatlanma işləri aparmırdılar. İlk növbədə, nəzərə almalıyıq ki, Ermənistanın təcavüzündən əziyyət çəkən vətəndaşlarımızla bağlı problemlərin həmin dövrdə beynəlxalq aləmdə təbliği istiqamətində təsisatlanma işləri prioritet məsələ idi. Göstərilir ki, həmin illərdə ölkəmizdə siyasi sistemin fəaliyyətinin zəif qurulması, siyasi sabitliyin olmaması vətəndaşlarımızın üzləşdiyi böyük təcavüzün ağır nəticələrini artırdı. Dövlət qurumları arasında əlaqələrin olmaması səbəbindən

özbaşınalıq, hərbi-siyasi təxribatlar genişləndi. Nəticədə sürətlənən düşmən hücumları qısa zamanda yüz minlərlə vətəndaşımızın ağır məhrumiyyyətlərlə üzləşməsinə səbəb oldu. Bu ərəfədə ölkəmizdə ictimai-siyasi sabitliyin mürəkkəb hal almasına siyasi-ideoloji boşluğun davam etməsi də mənfi təsirlərini göstərirdi. Müxtəlif dövlət və qeyri-dövlət təsisatları arasında ümummilli problemlər ətrafında institusional fəaliyyət bağlılığı yox idi.

İkinci paraqrafda - "**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü"** adlı yarımfəsildə göstərilir ki, Ermənistanın uzun illər vətəndaşlarımıza vurduğu zərərlərin institusional formada həlli dövətimizin əsas prioritet problemi olmuşdur. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başlanması və separatizm cəhdlərinin artması məsələsi yalnız Qarabağ ərazisi ilə məhdudlaşmamışdır. Ermənilər son iki yüz ildən artıq bir dövrdə böyük dövlətlərin marionetinə çevrilərək azərbaycanlılara qarşı hücumlar edərək, Azərbaycan ərazilərini zəbt etmiş, dinc sakinləri öldürmüş, kənd və şəhərlərimizi yandıraraq talamışdır. Göstərilir ki, ermənilərin Azərbaycana qarşı təcavüzünün XX əsrin əvvəllərindən silahlı toqquşma və terrorla müşahidə edilən mərhələsi başlamışdır. Həmçinin, bu mərhələnin hər birində xalqımızın nümayəndələri zərər çəkmiş, erməni qətliamları ilə üzləşmişlər. Bu prosesi XX əsrdə 3 mərhələyə bölə bilərik. I mərhələ 1905-ci il milli Azərbaycan kapitalizminin formalaşıb möhkəmlənməsi ərəfəsində ortaya çıxdı. Bakıda milli qüvvələrin təsisatlanması, partiya və regional təşkilatların yaranması, milli maarifçiliyin genişlənməsi erməniləri və onların arxasında dayanan qüvvələri narahat etməyə başladı. Milli burjuaziyanın Azərbaycanda təşkilatlanan fəaliyyəti müxtəlif qüvvələri narahat edir, milli dövlətin yaradılması istiqamətində fəal ziyalılarımız hədəfə alınırdı. II mərhələ SSRİ tərkibində ərazilərimizə etdikləri təhdidlər və xalqımızın İrəvandan deportasiyasıdır. Ermənistanın bu mərhələdə bir çox siyasi hücumlarının ağır nəticələri XX əsrin ikinci yarısında Ulu Öndər Heydər Əliyev tərəfindən dayandırıldı. III mərhələ XX əsrin sonunda Ermənistan tərəfindən başlanan hücum və neofaşizm siyasətidir. Onlar ərazi iddialarını bəhanə edərək terror və silahlı basqınlar törətməklə fəaliyyətə başladılar. Bu istiqamətdə onlar həm daxildə,

həm də xaricdə təsisatlanmaqla hücumlarını ideoloji səpkidə gücləndirdilər. Onlar bu hücumları həm də müxtəlif informasiya vasitələri, nəşr etdirdikləri məcmuələrdə də davam etdirərək dinc yanaşı yaşamanın bütün prinsiplərini ideoloji zəmində pozmuş, separatizm, neofaşizm siyasəti ilə vətəndaşlarımıza böyük ziyan vurmuşdular. 1 avqust 2013-cü il tarixində əsir, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4035 nəfər təşkil etmişdir. Ermənistanın təcavüzü nəticəsində ölkəmizdə mina qurbanlarının sayı 3345 nəfər təşkil etmişdir. Hələ də erməni terror dəstələrinin Azərbaycanın Qarabağ bölgəsində yerləşdirdiyi minaların xəritəsi tam şəkildə tapılmamışdır.

Ermənistanın bu kimi terror siyasətinin məhz bəzi qərb ölkələri və Fransadan qaynaqlandığı da məlum olur.

**"Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasəti"** adlı üçüncü paraqrafda Xocalı soyqırımı və onun agır nəticələri təhlil edilir. Göstərilir ki, Xocalı soyqırımının tanıdılması istiqamətində institusional işlərin daim aparılması zəruridir. Bu yarımfəsildə göstərilir ki, Xocalı faciəsi həm də azərbaycanlıların müstəqil dövlət ideallarının qarşısını almaq üçün törədilən soyqırım hadisəsi idi. Xocalı soyqırımının bütünlükdə bəşəriyyətə qarşı soyqırım addımı olması göstərilir. Belə faciənin qurbanlarının anım gününün təsisatlanmış formada artan silsilə ilə dünyada anılması vacibliyi bildirilir. Eyni zamanda göstərilir ki, Xocalı soyqırımı bir çox xarici qüvvələrin ermənilərlə əlbir fəaliyyəti ilə törədilərək xalqımızın müstəqillik ideallarının qarşısını almaq və tarixi ərazilərimizi bütünlüklə işğal etməyə yönəldi. Nəticədə Xocalı şəhərinin əhalisi etnik təmizlənməyə məruz qaldı. Bu soyqırımın dəhşətli dərəcədə amansızlıqla həyata keçirilməsi faciə qurbanlarını anan insanların sayını ilbəil artırır. Bu addımların arxasında böyük dövlətlərin institutlaşan sistemli maraqları dayanırdı. Göstərilir ki, yeni respublikaların milli özünüdərk, milli özünüidarə prosesinə daxil olması, həm Sovet rəhbərliyinin müəyyən dairələri, eyni zamanda digər xarici yeni siyasi qüvvələr tərəfindən qəbul edilməz olurdu. İqtisadi-coğrafi, geosiyasi amillərin həssas nöqtəsi olan Azərbaycana dünya maraqları həm çökməkdə olan sovet ittifaqı, həm də digər istiqamətlərdən daxil

olmağa başlayırdı. Azərbaycana qarşı həm də gizli və açıq yollarla ərazi iddiaları planları qurulur, mürəkkəb, həm də tarixi təzadlarla dolu bir dövr başlanırdı. Ermənistanın Azərbaycana qarşı soyqırım və ərazi iddiaları Qarabağ ərazisi ilə məhdudlaşmırdı. Belə ki, həmin dövrdə Qazax rayonunun yeddi kəndi, Naxçıvanın Kərki kəndi işğal edilərək dağıdılmış, əhalisi ağır itkilər verərək soyqırıma məruz qalmış, ağır itkilərlə üzləşmişlər. Boğanıs Ayrımda 1990-cı ilin mart ayının 23-dən 24-nə keçən gecə bir neçə ailə xüsusi amansızlıqla qətlə yetirilmişdir. Ermənilər son iki yüz ildən artıq bir dövrdə böyük dövlətlərin marionetinə çevrilərək azərbaycanlılara qarşı hücumlar edərək, Azərbaycan ərazilərini zəbt etmiş, dinc sakinləri öldürmüş, kənd və şəhərlərimizi yandıraraq talamışdır. Göstərilir ki, bu istiqamətdə ermənilər həm daxildə, həm də xaricdə təsisatlanmaqla hücumlarını ideoloji səpkidə gücləndirirdilər. Bu hücumlarını həm də müxtəlif informasiya vasitələri, nəşr etdirdikləri məcmuələrdə də davam etdirərək dinc yanaşı yaşamanın bütün prinsiplərini ideoloji zəmində pozmuş, separatizm, faşizm baxışları ilə mübarizəyə qoşulmuşlar. İstənilən soyqırımın törədilməsində xarici amilləri üzə çıxarmaq mümkündür. Ancaq hər hansı bir soyqırımın yenidən baş qaldırmamasının əsasında məhz bunu törədən subyektlərin institusional əsaslarla hədəfə alınması strategiyası dayanır.

Dissertasiyanın ikinci fəsli **“Ermənistanın hərbi təcavüzündən zərər çəkmiş Azərbaycan vətəndaşlarının problemlərinin institusional həlli bu sahədəki dövlət siyasəti kontekstində”** adlanır. Bu fəslin **“Ulu Öndər Heydər Əliyevin müstəqil dövlət quruculuğu strategiyası və Ermənistanın işğalının dayandırılması istiqamətində fəaliyyəti”** adlı birinci paraqrafı çətin tarixi sınaq dövrlərindən sonra adaptasiya məsələlərinin özündə bir çox amillərin kompleks təhlilini birləşdirir. Araşdırılır ki, Azərbaycan həmin dövrdə həm də demokratikləşmə prosesinin tətbiqi, ideoloji boşluğu aradan qaldırmaq yolu ilə yeni addımlar atırdı. Ölkədə yeni sivil Konstitusiyanın qəbulu bu sahədə xüsusi addım idi. Bu müstəqil dövlət quruculuğunda hüquqi bazanın möhkəmlənməsi və siyasi sistemin institusionallaşmasında vacib

amil idi. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində atəşkəsin əldə edilməsi, ATƏT-in silsilə sammitləri təcavüzkarın dünyada tanıdılması istiqamətində mühüm siyasi işlər oldu. Ulu Öndər Heydər Əliyevin uzaqgörən diplomatik siyasəti genişlənən erməni təcavüzünü dayandıra bildi. Təcavüzün genişlənməsinin qarşısının alınmasında çətinliklərdən biri də bu prosesin ölkədə sabitliyi pozmaqda maraqlı olan xarici qüvvələrin qarşısının alınması ilə eyni vaxtda davam etməsi idi. Respublikamız müharibədən zərər çəkən vətəndaşlarımızın problemlərinin həlli istiqamətində yeni institusionallaşma proseslərini genişləndirdi. Eyni zamanda Ulu Öndər Heydər Əliyev həmin dövrdə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşların propblemlərinin həlli ilə bağlı dövlət Komissiyasının yaradılması, bunların ardınca BMT Qətnamələrinin dövlətimizin xeyrinə səslənməsi, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərini tərk etməsi məsələlərini Beynəlxalq gündəmə gətirdi. Ulu Öndər əsir və itkin düşmüş vətəndaşlarımızın taleyini bütün beynəlxalq danışıqlarda müzakirəyə çıxarırdı. Münaqişə müddətində 1402 nəfər əsir və girovluqdan azad edilmişdir.

Ulu Öndərin milli strategiyasının uğurla reallaşmasına başlanılması, Əsrin müqaviləsinin imzalanması, cəbhə bölgəsində Ermənistanla atəşkəsə nail olunmasına dair sazişin imzalanması, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli imkanlarını getdikcə artırmış oldu. Onların müvafiq statusu, sosial müdafiəsi, yaşayış və iş yerləri ilə təmin edilməsi göstərir ki, Ümummilli Liderimiz Heydər Əliyev qaçqın və məcburi köçkünlərin yaşadıqları humanitar fəlakətin dünya ictimaiyyətinə çatdırılmasına, respublika və regional müşavirələrin keçirilməsinə xüsusi əhəmiyyət verirdi. Bu problemlərlə daha ciddi məşğul olmaq üçün qaçqın və məcburi köçkünlərin müdafiəsinə böyük diqqət yetirən Ulu Öndər bununla bağlı 40-dan çox fərman və sərəncam imzalamışdır. Həmin dövrdə bu fərman və sərəncamlar əsasən erməni təcavüzünün vətəndaşlarımıza vurduğu böyük ziyanların qarşısının alınmasına yönəldi.

İkinci paraqrafda - **“Ermənistanın hərbi təcavüzünün ağır nəticələri və onun aradan qaldırılması beynəlxalq danışıqlar müstəvisində”** yarımfəslində göstərilir ki, müharibənin sülh yolu ilə

həlli istiqamətində ölkəmizin uzun illər davam edən fəaliyyəti, danışıqlar prosesi və onun nəticələri həm də müharibədən zərər çəkmiş vətəndaşlarımızın problemlərinin həlli ilə paralel aparılmışdır. Bu ərəfədə ölkəmizdə bir milyondan artıq vətəndaşımız qaçqın və məcburi köçkünə çevrilmişdi. Onların haqq səslərinin dünyaya çatdırılması istiqamətində institusional fəaliyyət əsas problemlərdən idi. 1994-cü il Budapeşt sammitində münaqişənin diplomatik həlli istiqamətində fəaliyyətin intensivləşdirilməsi qərara alındı. 1996-cı ildə keçirilən ATƏT-in Lissabon Sammitində Azərbaycanın diplomatik uğurunun əsası qoyuldu. Tədbirdə Ulu Öndər Heydər Əliyev Ermənistanın işğalçı siyasətini sübut edərək bir milyon vətəndaşımızın ağır həyat şəraitini dünyaya bəyan etdi. Respublikamızın diplomatik uğurlarının bünövrəsi qoyuldu. Bu dövrdə diplomatik məsələlər, xalqımıza qarşı vurulan ziyanlar diplomatik institutların münasibətləri zəminində həll edilirdi. Uzun illər ərzində fəaliyyət göstərmiş ATƏT-in Minsk Qrupunun qeyri-institusional fəaliyyəti Ermənistanın vandalizm siyasətini və əhalimizə dəyən zərərləri ört-basdır cəhdi xarakteri daşıyırdı. Göstərilir ki, atəşkəs prosesi respublikamızda vacib institusionallaşma problemlərinin həlllinə kömək oldu. Atəşkəsin imzalanmasından sonra Azərbaycan aşağıdakı mühüm dövlətçilik addımlarını möhkəmləndirmiş oldu:

1.Münaqişənin beynəlxalq ictimaiyyətə tanıdılması;

2.Regional və beynəlxalq əhəmiyyətli neft-qaz layihələrinin icrası;

3.Yeni iqtisadi sistem (bazar iqtisadiyyatı, kapitalizm) formalaşdırmaq;

4. Ordu quruculuğu işlərini nizamlamaq;

5. Milli həmrəylik prinsiplərini möhkəmləndirmək və etnik separatizm cəhdlərini aradan qaldırmaq;

6. Xocalı soyqırımını dünyada tanıtmaq.

Məhz qeyd edilən bu 5 prinsipin reallaşması üçün atəşkəsin imzalanması olduqca zəruri idi. Bu gün ərazilərimizin 44 günlük bir döyüşdə azad edilməsi həm də atəşkəs dövründə Azərbaycan rəhbərliyinin ordu quruculuğuna xüsusi yanaşması, bu istiqamətdə diplomatik fəaliyyəti prioritetdə saxlamasının nəticəsidir.

Üçüncü paraqraf **“Şəhid ailələri, müharibə iştirakçıları,**

**qacqın və məcburi köçkünlərlə bağlı dövlət siyasəti"** adlanır. Göstərilir ki, müharibənin ilk illərindən başlayaraq, bu günə qədər elə bir məqam olmamışdır ki, müharibə qazilərimiz və şəhid ailələrimiz bir an belə dövlət və ictimai diqqətdən kənarda qalmış olsun. Bu istiqamətdə formalaşmış Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsi uzun illər ərzində xeyli işlər gördü. Vətən müharibəmizin ən böyük ideoloji əsasında həm də məhz belə müqəddəs prinsip dayanmışdır. Bu institusional təşkilatçılığın ideyası əsasında dayanan Azərbaycanın dövlət siyasəti uzun illər üçün regional balansı təmin etmiş oldu.

Müharibə iştirakçıları və şəhid ailələrinə qayğı hər zaman dövlətin diqqət mərkəzində olmuşdur. Ərazilərimizin işğaldan azad edilməsi hər zaman şəhidlərimizin fədakarlığı ilə mümkün olmuşdur. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilmişdır. Şəhid ailələrinə dövlət qayğısı ilbəil yeni təsisatlanma mərhələsinə qədəm qoyur. Məsələn, qardaş Türkiyədə şəhid ailəsi öz həyat yoldaşının məvacibinin 70 faizini aldığı halda, Azərbaycanda bu rəqəm 100 faizdir. Ordu quruculuğu istiqamətində Türkiyə modeli hərbi sahədə geniş uğurlar açmışdır.

Tədqiqatın üçüncü fəsli **"Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası və müharibədən zərər çəkmiş vətəndaşlara dövlət qayğısının yeni təsisatlanma mərhələsi"** adlanır. Bu fəslin **"Azərbaycan Respublikası ərazilərinin işğaldan azad edilməsində Prezident, Ali Baş Komandan İlham Əliyevin tarixi missiyası"** adlı birinci yarımfəslində araşdırılır ki, XX əsrin birinci rübünün sonlarında Azərbaycan xalqının tarixində şanlı səhifələr yazıldı. Bu qürurlu və eyni zamanda çox çətin günlərimizdə milli birliyimizin təməlindəki 3 sarsılmaz amil - Ali Baş Komandanın iradəsi, Ordunun gücü və Xalqın həmrəyliyi olan mənəvi qaynağımız dayanaraq Böyük Qələbəni təmin etdi. Prezident İlham Əliyevin düşmən üzərində qəti qələbə siyasəti aşağıdakı mühüm amillər ilə əlaqədardır:

- İdeoloji baxımdan cəmiyyətin qələbə ümidlərini hər zaman yüksək səviyyədə saxlamaq;
- Təcavüzkarın tanıdılması və ifşası istiqamətində geniş mədəni və siyasi tədbirlərin Bakıda keçirilməsi;

- Geosiyasi balansı qorumaq;
- Böyük enerji layihələrini qısa zamanda reallaşdıra bilmək;
- Ordunun hərbi qüdrətini yüksəltmək;
- Beynəlxalq arenada Qarabağın Azərbaycanın tarixi ərazisi olması faktını bütün çıxışlarının priambulasına daxil etmək gerçəkləşdirməsi məsələləri uzun sistemli yol keçmişdir;

  İşdə göstərilir ki, Prezident İlham Əliyevin tarixi missiyası ölkənin suverenliyini tam bərpa etmək siyasətinə hesablanmışdır.

Ali Baş Komandanın Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması istiqamətində apardığı uzaqgörən siyasəti yeni təsisatlanma məsələlərini özündə birləşdirdi. Göstərilir ki, Prezident İlham Əliyevin hələ 1 iyul 2004-cü il tarixli (N298 ) Sərəncamı ilə qaçqın və məcburi köçkünlərin şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət proqramı təsdiq etmişdir. Bu kimi məsələlərin elmi araşdırılması dissertasiyanın aktuallığını xüsusilə artırır. Ölkə başçımızın siyasi strategiyası Azərbaycanda milli birliyi və qələbəni institusional zəmində təmin etdi. Prezident İlham Əliyevin güclü dövlət ideyası, ilk növbədə, milli, konfessional tolerantlıq əsasında vətəndaş həmrəyliyinin bərqərar olmasını təmin edən milli ideyaya, azərbaycançılıq ideologiyasına istinad edir.[7] Böyük Qayıdışın proqramlı, ardıcıl, möhkəm təməl üzərində təsisatlanmış siyasəti vətəndaşlarımızın bir daha bu kimi faciələr yaşamayacağının təminatını bərqərar etdi. Göstərilir ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən məcburi köçkünlərlə, işğaldan zərər çəkmiş vətəndaşlarımızın problemlərinin həlli ilə bağlı indiyədək yüzlərlə Fərman və Sərəncam imzalanmışsır. Göstərilir ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Vətən müharibəsi dövrünə qədər vətəndaşlarımızın üzləşdiyi problemləri dövlət siyasətinin prioritetində saxlamaqla bərabər, dövlət suverenliyimizin tam bərpası üçün ardıcıl, qətiyyətli addımlar atmış, xarici və daxili siyasəti balanslaşdıraraq geniş institusional əhəmiyyətli strategiya hazırlamışdır. Məhz həmin strategiyanın nəticəsində 44 günlük müharibə Zəfər günü ilə nəticələndi.

[7] Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq. AMEA Fəlsəfə və Sosiologiya İnstitutu. Bakı, “Elm və Təhsil” 2022, 364 səh., səh.347

Bu fəslin ikinci **yarımfəsli "Azərbaycan Respublikası ərazisində dövlət suverenliyinin tam bərpası və Böyük Qayıdış siyasəti"** adlanır. Göstərilir ki, Ermənistanın hələ 90-cı illərdə xalqımıza qarşı genosid siyasəti 30 il işğalda saxladığı ərazilərimizdə daha açıqlığı ilə üzə çıxdı. Onlar tarixi ərazilərimizdə daşı daş üzərində qoymamışlar, bütünlüklə həm də eko-mədəni mühiti məhv etmişlər. Nəticədə 2023-cü ilin 20 sentyabrında bitən antiterror əməliyyatı erməni terror dəstələrinin ərazimizdə fəaliyyətinə son qoydu. Münaqişədən sonrakı yenidənqurma və reabilitasiya səylərində əsas rol təbii ki, dövlətə məxsusdur. O, inkişaf strategiyasını formalaşdırmalı və ona rəhbərlik etməli və baş rolda olmalıdır. Hökumət makroiqtisadi sabitliyi bərpa etmək və inflyasiyanı aşağı salmaq üçün iqtisadiyyatın bərpası və struktur düzəliş proqramları həyata keçirməlidir.[8] Prezident İlham Əliyevin siyasət kursu bütün istiqamətlərdə problemin institusional həll modelini tətbiq etməyə yönəlmişdir. Nəticədə qısa bir zamanda Ermənistanın Azərbaycan vətəndaşlarına vurduğu zərərlər kompleks həll yolu və sosial stratifikasiyalı qayıdış mexanizmi ilə gerçəkləşir. Göstərilir ki, Böyük Qayıdış Qarabağ ərazisi ilə bərabər, Şərqi Zəngəzuru da əhatə edəcəkdir. Uzun illər ərzində Şərqi Zəngəzur həsrəti yaşayan azərbaycanlılara nəhayət ki, öz tarixi ocaqlarına qayıtmaq fürsəti yetişmişdir. Bütünlüklə cəmiyyətimiz bu məqsəd üçün vahid güc nümayiş etdirərək səfərbərliyini qorumalı, Qərbi Azərbaycan İcması fəaliyyətini ölkə daxilində bütün bölgələrdən olan vətəndaşlarımızla qurmalıdır.

Üçüncü paraqrafın sonuncu fəsli **"Müharibədən zərər çəkmiş vətəndaşlarla işin təşkilində yeni institusional mərhələ"** adlanır. Bu yarımfəsildə müharibədən zərər çəkmiş vətəndaşlarla işin xüsusiyyətinin əsasən 2 istiqamətdə təşkil olunduğu bildirilir:

1) Müharibədən zərər çəkmiş hərbçilərlə aparılan institusional işlər;

2) Müharibədən zərər çəkmiş mülki şəxslərlə aparılan institusional işlər.

[8] Şahmar Əkbərli. "Post-konflikt ərazilərdə iqtisadiyyatın bərpası və dirçəldilməsi: ölkə təcrübələri, Azərbaycan üçün nümunələr." Geostrategiya. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, № 6 (78), noyabr-dekabr 2023, 222 səh., səh.154

Müharibədən zərər çəkmiş hərbçilərlə işin təşkili bu silsilədə xüsusi əhəmiyyət daşıyır. Göstərilir ki, “Yaşat” Fondunun yaradılması, yerli icra hakimiyyəti orqanlarında müvafiq təsisatlar, müharibə iştirakçıları üçün təyin edilən orden və medallar, bu sahədə verilən yeni fərman, sərəncam və qanunlar müasir dövrdə müharibədən zərər çəkmiş vətəndaşlarımızın problemlərinin həlli və onların vətənpərvərlik ruhunun yüksəldilməsində xüsusi önəm daşıyaraq müasir ideologiyamızın mühüm prinsiplərini müəyyənləşdirir. Həmçinin qeyd edilir ki, Qarabağda Ağıllı şəhər layihələrinın formalaşması sürətləndikcə, Zəngəzur dəhlizinin açılması və Ermənistanın konstitutsiyasında əlavə və dəyişikliklər etməsi qaçılmazdır. Bildirilir ki, müasir dövrdə vətəndaşlarımıza dəyən zərərlərin aradan qaldırılması istiqamətində səmərəli institutlaşma ağıllı yaşayış yerlərinin tikintisi və dəyən zərərlərin maksimum aradan qaldırılmasına hesablanmışdır. Müharibə nəticəsində erməni təcavüzündən zərər çəkmiş vətəndaşlarla iş hər zaman aparılmalıdır. Çünki Ermənistanın törətdiyi soyqırım faktları ilə tarixə düşən bu müharibənin fiziki və sosial-psixoloji nəticələrinin aradan qaldırılması uzun vaxt ərzində təşkil olunmuş sistemli fəaliyyət tələb edir. Bu yarımfəsildə bildirilir ki, hərbçi şəxslərə, onların ailələrinə müharibə dövrü və ondan sonra da dövlətin diqqət və qayğısı davamlı və sistemli aparılmalıdır. Onların tələbatları zəminində görülən davamlı institusional işlər dövlətimizin gələcək ideoloji prioritetlərində mühüm siyasi nəzəri istiqamətdir. Müasir milli ideologiyamızın təməl prinsiplərində hərbçilərə dövlətin və cəmiyyətin yüksək ehtiramlı siyasəti vacib ideoloji prinsip olaraq institusionallaşmalıdır. Göstərilir ki, çox qısa bir zamanda tarixi ərazilərini azad etmiş dövlətimiz müharibədən ağır zərərlər çəkmiş vətəndaşlarımızın həyat səviyyəsinin yüksəldilməsi üçün strateji və ideoloji zəmində işləri genişləndirir. Nəticədə, müharibədən zərər çəkən vətəndaşlarımızla aparılan işlərin geniş təsisatlanması həm dövlət, həm də vətəndaş cəmiyyətinin fəaliyyətini bir araya gətirmişdir.

**Nəticədə** tədqiqata yekun vurulur, aparılan ümumiləşdirilmiş müddəalar əsasında aşağıdakı tövsiyələr irəli sürülür:

1. Ermənistanın Azərbaycanın tarixi torpaqlarında 30 illik hərbi

təcavüzü, azərbaycanlılara qarşı aparılan etnik təmizləmə, soyqırım, terror siyasəti haqqında dünya birliyinin daha fəal şəkildə məlumatlandırılması işini davam etdirməklə, bu məqsədlə müasir informasiya texnologiyalarının, sosial şəbəkələrin imkanlarından istifadə etmək faydalı olar.

2. Təhlil əsasında müasir dünyada qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş milyonlarla insanların problemlərinin öz həllini tapmadığı bir vaxtda Azərbaycanda Ermənistanın təcavüzündən zərər çəkmiş vətəndaşlarla bağlı dövlət siyasətinin böyük uğurla həyata keçirilməsi təcrübəsi oxşar problemlərlə üzləşən dövlətlər üçün nümunəvi model olaraq maraq doğurur. Bu baxımdan Azərbaycan dövlətinin təməli Ulu Öndər tərəfindən qoyulan və onun ən layiqli siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla reallaşdırılan bu istiqamətdəki dövlət siyasətinin geniş araşdırılması və müasir informasiya texnologiyaları vasitəsilə təbliğ edilməsi xüsusi əhəmiyyət kəsb edir.

3. Azərbaycan ərazilərini işğal etmiş, beynəlxalq hüquqa görə ən ağır cinayətlər – etnik təmizləmə, soyqırım, separatizm, terror törətmiş Ermənistanın keçmiş və indiki rəhbərliyi beynəlxalq cinayət məhkəməsinə cəlb edilməli, Azərbaycan dövlətinə  və milyondan çox vətəndaşlarımıza dəymiş zərər Ermənistan tərəfindən ödənilməlidir.

4. Ermənistanın Azərbaycana təcavüzündən əziyyət çəkmiş yüz minlərlə azərbaycanlının həyat problemlərinin beynəlxalq səviyyədə təbliğinin, eləcə də bu istiqamətdə ölkəmizdə qəbul edilən qanun və sərəncamlar atəşkəs, münaqişə və post münaqişə dövrlərində idarə olunması sahəsində dövlətimizin nümunəvi təchizatını reallaşdırdı. Vətəndaşlarımızın ilə bağlı dövlət siyasətinin həyata keçirilməsində iştirak edən müvafiq hökumət qurumları və ictimai təşkilatların kompleks yanaşma əsasında birgə fəaliyyəti uğurlu nəticələr verməklə, bu təcrübənin davam etdirilməsini məqsəduyğun edir.

5. Prezident İlham Əliyevin Böyük Qayıdış strategiyasının reallaşması modeli işğaldan azad olunmuş torpaqlara Ermənistanın hərbi təcavüzündən əziyyət çəkmiş vətəndaşlarımızın qayıtması bu cür problemlərlə üzləşən ölkələr üçün də uğurlu nümunədir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində dərc edilmişdir:**


1. The process of strengthening the foundations of socio-political institutionalization in Azerbaijan Fundamentalis scientiam" (Madrid, Spain №27 /2019VOL.
2. Sosyal hizmet sistemine kurumsal yaklaşım Innovation and Global Issues Gongress V 2019 Ankara/ Turkey
3. Ümummilli lider Heydər Əliyev Müstəqilliyimizin banisidir. Heydər Əliyev ideyaları və müasir Azərbaycan Elmi-praktiki konfransının materialları. Azərbaycan Respublikasının Prezidenti yanında DİA (B,2020)
4. Compensation of Armenia to Azerbaijan European Science Review Европейское научное обозрение № 1-2/2021. European Science Review Европейское научное обозрение № 1-2/2021
5. Türkiyə-Azərbaycan münasibətləri müasir mərhələdə ULUSLARARASI SOSYAL BEŞERİ VE EĞİTİM BİLİMLERİ KONGRESİ Orp Organizasyon <info@orporganizasyon.com> Tarih: 25.01.2021 06:21 (GMT+04:00)
6. Tarixi qələbəmizin hərbi diplomatik sosial-siyasi əsasları AMEA Fəlsəfə və Sosiologiya institutu Elmi əsərlər -beynəlxalq elmi-nəzəri jurnal iyul 2021
7. Azerbaijan folklore from past to present Innovation and Global Issues Gongress V 2019 Ankara/ Turkey
8. İnstitusionallaşma praqmatizmin və siyasi inkişafın mühüm amili kimi Azərbaycan Respublikasının Prezidenti yanında DİA (B,2021)
9. Ümummilli liderin ideyaları ordu quruculuğu və vətənpərvərlik ruhunun təməl prinsiplərini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti yanında DİA (B, 2021) Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə
10. Əbədi müstəqilliyimizin Zəfər səhifəsi Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər jurnalı, may 2021 Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. 2021 № 2 (111)
11. İnstitusionallaşma praqmatizm və siyasi inkişafın mühüm amili kimi Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə. №4 (72) 2020. (s.281-287) İSSN 2309-1347.

12. The process of strengthening the foundations of socio-political insitutialization (p. 20-25)
ISSN 2414-9616. МІНІСТЕРСТВО ОСВІТИ І НАУКИ УКРАЇНИ. Південноукраїнський національний педагогічний університет імені К.Д. Ушинського. ПОЛІТИКУС. Науковий журнал. Випуск 1. Видавничий дім “Гельветика” 2022



Dissertasiyanın müdafiəsi "25" may 2025-ci il tarixində saat "11:00"-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı ş., Lermontov küç., 74

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "26" aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.03.2025
Kağızın formatı: A5
Həcm: 40.059
Tiraj: 100